


# Quantifiers

Kəmiyyət bildirən sözlər həm isimləri təyin edə, həm də onların əvəzinə işlənə bilir. Kəmiyyət bildirən sözlər aşağıdakılardır:

***many, a few, few, only a few, several, much, little, a little, only a little, a lot of, lots of, plenty of, most, enough***



## Cəm isimlərlə işlənənlər:

**1. *many* *(çox, bir çox, çoxlu)*:**

- *There were many people in the hall.* [Zalda çoxlu adam var idi.]
- *We bought many gifts from the shop.* [Mağazadan çoxlu hədiyyələr aldıq.]

**2. *a few* *(bir neçə)*:**

- *There are a few sparrows on the tree.* [Ağacda bir neçə sərçə var]
- *She has read a few books on this topic.* [O, bu mövzuda bir neçə kitab oxuyub.]

**3. *few = only a few* *(çox az, yalnız bir neçə)*:**

- *There are few passengers on the bus.* [Avtobusda çox az sərnişin var.]
- *Only a few athletes won gold medals.* [Yalnız bir neçə idmançı qızıl medal qazandı.]

***Qeyd:*** *a few* ilə *few/only a few* arasındakı məna fərqinə diqqət etmək lazımdır:

*Fortunately, there are few mistakes in my essay.* [Xoşbəxtlikdən inşamda çox az səhv var.]
*Unfortunately, there are a few mistakes in my essay.* [Təəssüf ki, inşamda bir neçə səhv var.]

### 4. *several (bir neçə)*:

- *He has been to Paris several times.* [O, bir neçə dəfə Parisdə olub.]
- *They have signed several documents.* [Onlar bir neçə sənəd imzalayıb.]

## Sayılabilməyən isimlərlə işlənənlər:

1. *much (çox, bir çox, çoxlu):*

- *My friend doesn't eat much fruit.* [Dostum çox meyvə yemir.]
- *The teacher gave us much advice.* [Müəllim bizə çoxlu məsləhət verdi.]

2. *a little (bir az, bir qədər):*

- *He added a little sugar into his tea.* [O, çayına bir az şəkər əlavə etdi.]
- *His parents gave him a little money.* [Valideynləri ona bir az pul verdi.]

3. *little = only a little (çox az, yalnız bir qədər):*

- *She eats little bread at dinner.* [O, naharda çox az çörək yeyir.]
- *He has only a little interest in politics.* [Onun siyasətə çox az marağı var.]

***Qeyd:*** *a little* ilə *little/only a little* arasındakı məna fərqinə diqqət etmək lazımdır:

*Don't worry. We have a little time.* [Narahat olma. Bizim bir az vaxtımız var.]

*Let's hurry. We have little time.* [Tələsin. Bizim çox az vaxtımız var.]

## Həm cəm, həm də sayılabilməyən isimlərlə işlənənlər:

1. *a lot of (çox, bir çox, çoxlu):*

- *A lot of people learn a foreign language.* [Bir çox insan xarici dil öyrənir.]
- *He spent a lot of money on this house.* [O, bu evə çox pul xərclədi.]

2. *lots of (çox, bir çox, çoxlu):*

- *The pupils wrote lots of tests yesterday.* [Şagirdlər dünən çoxlu test yazdılar.]
- *Lots of rice is cultivated in this region.* [Bu rayonda çoxlu düyü əkilir.]

***Qeyd:*** *a lot* hərəkətə aid olur. Ondan sonra isim *işlənmir*.

*She spoke a lot about her childhood.* [O, uşaqlığı barəsində çox danışdı.]

### 3. *plenty of* *(çox, bir çox, çoxlu)*:

- *The children gathered plenty of apples.* [Uşaqlar çoxlu alma yığdılar.]
- *People should drink plenty of water.* [İnsanlar çoxlu su içməlidirlər.]

### 4. *most* *(əksər)*:

- *Most furniture is made of wood.* [Əksər mebellər taxtadan hazırlanır.]
- *My father likes most vegetables.* [Atam əksər tərəvəzləri xoşlayır.]

### 5. *enough* *(kifayət qədər)*:

- *My brother has enough experience.* [Qardaşımın kifayət qədər təcrübəsi var.]
- *There are enough chairs for everybody.* [Hər kəs üçün kifayət qədər stul var.]

## Kəmiyyət bildirən sözlərin digər hallarda işlənməsi:

*such (elə, belə)* özündən sonra hər cür *isim* tələb edir. Onunla isim arasında *sifət* işlənə bilər.

| | |
|---|---|
| • *It was such an interesting film.* | [O, elə maraqlı film idi ki.] |
| • *I needed such (useful) advice.* | [Belə (faydalı) məsləhətə ehtiyacım var idi.] |
| • *Such (interesting) books are hard to find.* | [Belə (maraqlı) kitabları tapmaq çətindir.] |

*so (elə, belə)* özündən sonra *sifət* və ya *zərf* tələb edir. Ondan sonra isim *işlənmir*.

| | |
|---|---|
| • *This furniture is so expensive.* | [Bu mebel elə bahalıdır ki.] |
| • *His father drove the car so quickly.* | [Atası maşını elə sürətli sürdü ki.] |

- *so/too/very* zərflərindən sonra *many/much, few/little* işlənə bilir.



*She pays very little attention to her health.* [O, sağlığına çox az diqqət edir.]

*There were so many people at the theatre.* [Kinoteatrda elə çox adam var idi.]

*He has invited too few guests to the party.* [O, qonaqlığa olduqca az qonaq dəvət edib.]

- *how* zərfindən sonra *many/much* işlənə bilir.

***how many***

- *How many flats are there in this building?*
- [Bu binada neçə mənzil var?]

***how much***

- *How much money did you spend yesterday?*
- Dünən nə qədər pul xərclədin?

- *such* sözündən sonra yalnız *a lot of* işlənə bilir.




*They planted such a lot of trees in the garden.* [Onlar bağda olduqca çox ağac əkdilər.]

*There is such a lot of dust on the table.* [Stolun üstündə olduqca çox toz var.]

- *many*/*much, few*/*little* müqayisə və üstünlük dərəcələrində də işlənə bilir.

*many/much (çox) – more (daha çox) – the most (ən çox)*

*few (az) – fewer (daha az) – the fewest (ən az)*

*little (az) – less (daha az) – the least (ən az)*

| | |
|---|---|
| *He earns less money than his wife.* | [O, həyat yoldaşından daha az pul qazanır.] |
| *Fewer people came than they expected.* | [Onlar gözlədiyindən daha az adam gəldi.] |
| *There were more guests than we expected.* | [Gözlədiyimizdən daha çox qonaq var idi.] |

*many*/*much*/*(a) few*/*(a) little* mübtəda və əvəzedici kimi *isimsiz* də işlənə bilir.

- *Many were afraid after the earthquake.* [Zələzələdən sonra çoxu qorxmuşdu.]
- *He made many suggestions but a few were accepted.* [O, çox təklif etdi ancaq bir neçəsi qəbul edildi.]

*(a) little "kiçik, balaca"* mənasında sifət kimi də işlənə bilir. Bu zaman ondan sonra *sayılabilən tək* və ya *cəm* isim işlənir.

*I have never seen such a little insect.*
[Heç vaxt belə balaca həşərat görməmişəm.]

*My brother has got little rabbits.*
[Qardaşımın balaca dovşanları var.]

***Qeyd:*** *təyinedici + isim + <u>isim</u>* quruluşunda *ikinci*, *təyinedici + <u>isim</u> of isim* quruluşunda isə *birinci* ismə diqqət etmək lazımdır.

*There are a few traffic signs on this road.* [Bu yolda bir neçə yol nişanı var.]

*She put a few slices of cheese on the plate.* [O, boşqaba bir neçə dilim pendir qoydu.]

*He poured a little orange juice into the glass.* [O, stəkana bir az portağal şirəsi süzdü.]

| **Quantifier + plural noun** | **Quantifier + uncountable noun** | **Quantifier + plural /uncountable noun** |
|---|---|---|
| *many* | *much* | *a lot of* |
| *so many* | *so much* | *lots of* |
| *too many* | *too much* | *plenty of* |
| *very many* | *very much* | *such a lot of* |
| *how many* | *how much* | *most* |
| *few* | *little* | *enough* |
| *a few* | *a little* | |
| *only a few* | *only a little* | |
| *so few* | *so little* | |
| *too few* | *too little* | |
| *very few* | *very little* | |